**Agasiyev R.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.6-16**
**УДК 342.7**

## Problems in the registration of foreigners and stateless persons in Azerbaijan Republic

**Abstract:** It is provided an explanation for foreigners and stateless persons, defining their own specific features and legal status. Problems in the registration of those persons at the place of residence and location are analyzed and investigated. The article also compares the deficiencies in the Law of the Republic of Azerbaijan No. 55-IQ of April 4, 1996 “On the registration of residence and place of stay” and made some scientific suggestions.

**Keywords:** foreigners and persons without citizenship; residence registration; registration upon place of stay; special certificate sample; special sample of decision.

## References

1. *Azerbaycan Respublikasinin Konstitusiyasi*. [The Constitution of Azerbaijan Republic]. Baku, Qanun Publ., 2019, 63 p.

2. *Azerbaycan Respublikasinin Miqrasiya Mecellesi* [The Migration Code of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2018, 167 p.

3. *Azerbaycan Respublikasinin Menzil Mecellesi* [Housing Code of the Republic of Azerbaijan]. Baku, Qanun Publ., 2016, 76 p.

4. *Azerbaycan Respublikasinin Inzibati Xetalar Mecellesi* [Code of Administrative Offenses of Azerbaijan Republic]. Baku, Qanun Publ., 2018, 314 p.

5. *Azerbaycan Respublikasinin 8 dekabr 1999-cu il tarixli 773-IQ nomreli Qanunu* [The Law of Azerbaijan Republic No. 773-IQ dated on December 8, 1999]. Available at: http://www.e-qanun.az/framework/28796 (accessed 14.11.2019)

6. *Azerbaycan Respublikasinin 19 aprel 2002-ci il tarixli 306-IIQD nomreli Qanunu* [Law of the Republic of Azerbaijan No. 306-IIQD dated April 19, 2002]. Available at: http://www.e-qanun.az/framework/1631 (accessed 14.11.2019)

7. *Azerbaycan Respublikasi Prezidentinin 19 mart 2007-ci il tarixli 560 nomreli Fermani*. [Decree of the President of Azerbaijan Republic No. 560 dated on March 19, 2007]. Available at: http://www.e-qanun.az/framework/12885 (accessed 15.11.2019)

8. Chirkin V.E. *Xarici olkelerin konstitusiya huququ: derslik/terc.ed. A.H. Huseynov* [Constitutional law of foreign countries. Textbook, transl. by A.H. Huseynov]. Baku, Digesta Publ., 2009, 720 p.

♦ **Agasiyev Rasim Mizi oglu** - PhD in Law, Head of the Department “The Rights of Foreigners and Migration” of Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences, Azerbaijan. E-mail: rasim_agasiyev@mail.ru

9. *“Yaşayısh yeri ve oldugu yer uzre qeydiyyat haqqinda” Azerbaycan Respublikasinin 4 aprel 1996-ci il tarixli 55-IQ nomreli Qanunu*. [Law of Azerbaijan Republic No 55-IQ dated on April 4, 1996 “On registration of residence and place of stay”]. Available at: http://www.e-qanun.az/framework/ 3988 (accessed 12.11.2019).

10. Boguslavskiy M.M. *Mezdunarodnoe chastnoe pravo:* uchebnoe posobie. 5-e izd. pererab. i dopoln. [International private law: teaching aid. 5 edition, reworked and supplemented]. Moscow, Yurist Publ., 2005, 604 p.

11. Lukashuk I.I., Shinkaretskaya G.G. *Mezhdunarodnoe pravo* [International Law]. Moscow, Ros. pravo Publ., 2003, 400 p.

12. *Sovetskiy entsiklopedicheskiy slovar’* [Soviet encyclopedical dictionary]. Moscow, Sovetskaya entsiklopediya Publ., 1987, 1600 p.

13. *Slovar’ inostrannykh slov* [Dictionay of foreign words]. Moscow, Russkiy yazyk Publ., 1986, 422 p.

14. Tiunov O.I. *Problemy mezhdunarodnogo gumanitarnogo prava* [Problems of international humanitarian law]. Moscow, ID Yurisprudentsiya Publ., 2008, 290 p.

15. *Tolkoviy slovar’ russkogo yazyka*. Tom 1; pod red. D.N. Ushakova [Explanatory dictionary of Russian language. Vol.1; ed. by D.N. Ushakov]. Moscow, Sovetskaya entsiklopediya Publ., 1935, 1209 p.

16. *Tolkoviy slovar’ russkogo yazyka*. [Explanatory dictionary of Russian language]. Moscow, Gosudarstvennoe izdatel’stvo inostrannykh slovarey Publ., 1939, 979 p.

**Ağasiyev R.M.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.6-16**
**UOT 342.7**

# Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmasında mövcud olan problemlər

**Xülasə:** Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə anlayış verilir, xüsusi əlamətləri və hüquqi statusu müəyyənləşdirilir. Həmin şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmasında mövcud olan problemlər təhlil edilir və araşdırılır. Habelə məqalədə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanununda mövcud olan nöqsanlarla bağlı müqayisələr aparılmış və bir sıra elmi təkliflər verilmişdir.

**Açar sözlər:** əcnəbilər və vətəndaşlığı olmayan şəxslər; yaşayış yeri üzrə qeydiyyat; olduğu yer üzrə qeydiyyat; xüsusi nümunəli vəsiqə; xüsusi nümunəli qərar.

Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının beynəlxalq hüquq normalarına uyğun təmin edilməsi və miqrasiya proseslərinin tənzimlənməsi məqsədi ilə ölkəmizdə müasir dövrün tələblərinə cavab verən milli qanunvericilik bazası yaradılmışdır. Lakin buna baxmayaraq həmin subyektlərin hüquq və azadlıqlarının təminatı ilə bağlı bəzi nəzəri və təcrübi problemlər mövcuddur. Bu baxımdan Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və digər sahəvi normativ hüquqi aktlarda təsbit edilmiş bir sıra normaların doktrinal qaydada izah və şərh edilməsinə ehtiyac vardır. Bu problemlərin izah edilməsi üçün ilk növbədə, "əcnəbi" və "vətəndaşlığı olmayan şəxs" terminlərini nəzərdən keçirək. "Əcnəbi" sözü ərəb mənşəli olub, mənası "başqa dövlətin vətəndaşı, təbəəsi" deməkdir [15, s. 112].

Qeyd etmək lazımdır ki, hüquq ədəbiyyatında "əcnəbi" anlayışına fərqli yanaşmalar mövcuddur. Bəzi mənbələrdə "əcnəbi" anlayışı "xarici" və yaxud "xarici vətəndaş" anlayışı kimi başa düşülür. Yəni başqa dövlətin ərazisində olan digər dövlətin vətəndaşına və ya vətəndaşlığı olmayan şəxsə xarici deyilir [13, s. 108]. Digər hüquq ədəbiyyatında isə vətəndaşlığı olmayan şəxs "xarici" və yaxud "xarici vətəndaş" kimi deyil, "apatrid" kimi tanınır. "Apatrid" sözü latınca *patris (patridos)* olub, mənası vətəni olmayan, vətəndaşlığı olmayan şəxs kimi başa düşülür [13, s. 46].

Hüquq ədəbiyyatında bu subyektlərə verilən anlayışlar fərqli olduğu kimi, hüquqşünas alimlərin fikir və mülahizələri də müxtəlifdir. Məsələn, hüquqşünas alim O.İ. Tiunov "əcnəbi vətəndaş" anlayışını "vətəndaşlığı olmayan şəxs" anlayışı ilə eyniləşdirərək həmin şəxsləri "əcnəbi" adlandırıb. O, bu şəxsləri yerləşdiyi dövlətin vətəndaşlığına malik olmayan və digər dövlətin vətəndaşı olan şəxs kimi izah edir [14, s.70].

Bu məsələ ilə bağlı digər fərqli yanaşma M.M. Boqoslavskiyə məxsusdur. M.M. Boqoslavski qeyd edir ki, əcnəbi vətəndaşların statusu çox hallarda vətəndaşlığı olmayan şəxslərin statusu ilə üst-üstə düşdüyünə görə hər iki kateqoriya şəxslərə "əcnəbi" demək olar [10, s. 101]. Lakin daha

♦ **Ağasiyev Rasim Mizi oğlu** - hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun "Əcnəbilərin hüquqları və miqrasiya" şöbəsinin müdiri, Azərbaycan. E-mail: rasim_agasiyev@mail.ru

maraqlı və fərqli yanaşma İ.İ. Lukaşuk və Q.Q. Şinkaretskaya tərəfindən irəli sürülür. Onların fikrincə, digər dövlətin vətəndaşlığına malik olan şəxslər – "əcnəbi vətəndaşlar", vətəndaşlığı olmayan şəxslər isə - "multipatridlər" yəni bir neçə dövlətin vətəndaşı olan şəxslər hesab edilir [11, s. 95].

Bu anlayışlarla bağlı dövlətdaxili qanunlarda da fərqli yanaşmalar vardır. Məsələn, ABŞ, Litva, Polşa və Qazaxstan öz milli qanunvericiliklərində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə eyni mövqedən yanaşaraq, həm "əcnəbilər"ə, həm də "vətəndaşlığı olmayan şəxlər"ə "əcnəbi" terminini tətbiq edir. Digər qrup dövlətlər isə, məsələn, Rusiya Federasiyası, Belarus, Moldova və Azərbaycan öz milli qanunvericiliklərində həm "əcnəbi", həm də "vətəndaşlığı olmayan şəxs" terminindən istifadə edir [8, s. 211].

Göründüyü kimi, istər hüquqşünas alimlərin fikirlərində, istərsə də dövlətdaxili qanunlarda təsbit edilmiş normalarda bu anlayışlar bir sıra əlamətlərinə görə bir-birindən fərqlənirlər. Fikrimizcə, "əcnəbi" anlayışı "vətəndaşlığı olmayan şəxs" anlayışından bəzi əlamətlərinə görə fərqləndiyi üçün bu anlayışları eyniləşdirmək olmaz. Birincisi, əcnəbi – ölkənin vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxsdirsə, vətəndaşlığı olmayan şəxs – heç bir dövlətin vətəndaşlığına mənsub olmayan şəxsdir. İkincisi, əcnəbi öz ölkəsini könüllü olaraq istədiyi vaxt tərk edərək başqa dövlətin ərazisinə gedirsə, vətəndaşlığı olmayan şəxs yaşadığı dövlətdə siyasi, dini, irqi, milli və sosial mənsubiyyətinə görə təqibə məruz qaldığı üçün həmin ölkəni məcburi tərk edərək digər dövlətin ərazisinə gedir. Üçüncüsü, əcnəbi istədiyi vaxt vətəndaşı olduğu ölkəyə qayıda bilirsə, vətəndaşlığı olmayan şəxs təqib olunduğu üçün tərk etdiyi dövlətə bir daha qayıda bilmir. Dördüncüsü, əcnəbinin vətəndaşı olduğu dövlətdə hüquq və vəzifələri saxlanılırsa, vətəndaşlığı olmayan şəxsin əvvəlki dövlətdə hüquq və vəzifələri saxlanılmır.

Fikrimizcə, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə anlayış verilərkən qeyd edilən əlamətlər nəzərə alınmalıdır. Belə ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 3.0.1-ci maddəsinə görə əcnəbi – Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxsdir; vətəndaşlığı olmayan şəxs isə – heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxsdir [2, s. 4].

Əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə verilmiş bu anlayışlardan göründüyü kimi, anlayışlar həmin şəxslərin real hüquqi vəziyyətini özündə tam ehtiva etmədiyinə görə məqbul hesab edilə bilməz.

Bu baxımdan tərəfimizdən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yeni məzmunda anlayışlar verilmişdir. Bu anlayışları diqqətinizə təqdim edirəm. "Əcnəbi – gəldiyi dövlətin vətəndaşı olmayıb, lakin həmin dövlətdən müəyyən hüquqlar əldə etmiş, həmçinin özünün vətəndaşı olduğu dövlətdə hüquq və vəzifələrini saxlayan şəxsə deyilir. Vətəndaşlığı olmayan şəxs – siyasi, dini, irqi, milli və sosial mənsubiyyətinə görə yaşadığı dövləti birdəfəlik tərk etmiş, heç bir dövlətin vətəndaşı olmayan və gəldiyi dövlətin vətəndaşlığına mənsub olmayan şəxsə deyilir."

Bununla bağlı təklif edilir ki, həmin anlayışlar Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 3-cü maddəsinə daxil edilsin.

Qeyd etmək istərdim ki, hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdən biri də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu ilə bağlıdır. "Status" latın sözü olub *(status - vəziyyət)*, mənası vətəndaşın, yaxud hüquqi şəxsin hüquqi vəziyyəti kimi başa düşülür.

Hüquq ədəbiyyatında bu məsələ ilə bağlı fərqli yanaşmalar mövcuddur. Məsələn, hüquqşünas alim S.V. Romanov qeyd edir ki, "vətəndaşa məxsus bütün hüquq, azadlıq və vəzifələrin məcmusu

hüquqi status adlanır". Lakin S.V. Çerniçenko və N.İ. Marişeva qeyd edirlər ki, "hüquqi vəziyyət" "hüquqi status" vasitəsilə müəyyənləşir.

Bizim fikrimizcə, "status" əcnəbilərin olduğu dövlətdə onlara verilən hüquq və vəzifələrin məcmusu kimi başa düşülməlidir [13, s. 211]. Belə ki, ölkəmizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu öz əksini, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasının 69 və 70-ci maddələrində tapmışdır. Həmçinin Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan 3-cü fəslində təsbit olunmuş bütün hüquq və azadlıqlar Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bəzi istisnalarla ölkəmizdə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də şamil edilir [1, s. 10].

Göründüyü kimi, Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının düzgün tənzimlənməsində onların hüquqi statusunun müəyyən edilməsi mühüm rol oynayır. Bu baxımdan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Konstitusiyada təsbit edilmiş hüquqi statusu "milli rejim" prinsipinə uyğun olaraq milli qanunvericiliklə həmin şəxslərə verilən çoxsaylı hüquq və azadlıqların məcmusu kimi başa düşülür.

Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınması məsələləri "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanunu ilə tənzimlənir. Bu Qanuna əsasən, şəxsin yaşayış yeri – daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri və digər bu kimi yaşayış yerləri başa düşülür. Şəxsin olduğu yer isə – onun yaşayış yeri sayılmayan, müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və digər belə ictimai yerlər başa düşülür [9].

Lakin bu Qanuna görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər həm yaşayış yeri üzrə, həm də olduğu yer üzrə qeydiyyata alınırlar. Qeyd etmək lazımdır ki, "qeydiyyat"la "qeyd" bir-birindən fərqli anlayışlar olsa da, Qanunda bu anlayışlara fərq qoyulmur. Halbuki, hüquq ədəbiyyatında "qeydiyyat"la "qeyd"ə fərqli anlayışlar verilir. Belə ki, qeydiyyat – (rus dilində – "прописка") latın sözü olub, mənası "pasportda yaşayış yerinin rəsmi qeydinin aparılması haqqında ştamp, işarə" kimi başa düşülür. Məsələn, hər hansı bir şəxsin daimi yaşadığı ünvana qeydiyyata alınması. Lakin qeyd – (rus dilində – "регистрация") latın sözü -"registrum" olub, mənası "kitaba, siyahıya daxil etmək; siyahı tərtib etmək" kimi başa düşülür [16, s. 214]. Məsələn, mehmanxana, xəstəxana, sanatoriyaya və s. yerə müvəqqəti yaşamağa gəlmiş şəxsi siyahıya almaq və ya kitaba salmaq kimi başa düşülür. Göründüyü kimi, "qeydiyyat"la "qeyd" anlayışları öz hüquqi təyinatlarına görə bir-birindən əsaslı surətdə fərqlənirlər. Məsələn, hər birimiz daimi yaşadığımız evə qeydiyyata alınırıq, lakin sanatoriyaya, istirahət evinə, pansionata istirahətə gedərkən və yaxud xəstəxanada müalicə alarkən, həmin yerlərin inzibatçıları bizi qeydiyyata yox, qeydə alırlar. Lakin Qanunda "qeydiyyat"la "qeyd"ə fərq qoyulmadığı üçün həm ölkə vətəndaşları, həm də əcnəbilər və vətəndaşlığı olmayan şəxslər həm yaşayış yeri, həm də olduğu yer üzrə qeydiyyata alınırlar. Fikrimizcə, bu hal Qanunun adında dəyişiklik edilməsinə zərurət yaradır. Bununla bağlı təklif edilir ki, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanununun adı dəyişdirilərək "Daimi yaşayış yeri üzrə qeydiyyat və gəldiyi yer üzrə qeyd haqqında" Qanun adlandırılsın. Qanunun yeni təklif edilən adından məlum olur ki, şəxs daimi və ya daha çox yaşadığı yerə (ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evlərinə) qeydiyyata, müvəqqəti olduğu yerə (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq,

turist bazası, xəstəxana) qeydə alınmalıdır. Məlumat üçün bildirirəm ki, tərəfimizdən yeni qanun layihəsi hazırlanıb və o, yaxın vaxtlarda ölkəmizin qanunverici orqanına təqdim ediləcək.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunda mövcud olan nöqsanlardan biri də "Qeydiyyata almanın məhdudlaşdırılması əsasları" adlı 4-cü maddəyə edilmiş əlavə ilə bağlıdır. Belə ki, 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun 4-cü maddəsində "qapalı inzibati ərazi bölgələrində" sözləri "qapalı ərazilərdə" sözləri ilə əvəz edilmişdir [6].

Lakin qanunda hansı ərazilərin qapalı hesab edilməsi, həmçinin həmin maddədə göstərilən yaşayış yerlərində qeydiyyata almanın məhdudlaşdırılması hansı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilməsi və məhdudlaşdırılmanın müddəti öz əksini tapmamışdır. Bu da əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının əsassız və qanunsuz olaraq məhdudlaşdırılmasına səbəb olur. Bununla bağlı təklif edilir ki, qanuna bu barədə müvafiq normalar əlavə edilsin.

Bundan başqa, qanunda mövcud olan nöqsanlardan biri də "Yaşayış yeri üzrə qeydiyyata almaqdan imtina edilməsi" adlı 8-ci maddədə olan normalarla bağlıdır. Bu maddənin 3-cü bəndində göstərilir ki, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin qeydiyyata alınacağı halda (Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə əsasən ailə üzvü kimi yaşayış sahəsinə köçürüldüyü hallar istisna olmaqla), həmin yaşayış sahəsində yaşayan şəxslərin hər birinə Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 40-cı maddəsində müəyyən edilmiş mənzil normasından az yaşayış sahəsi düşdükdə Dövlət Miqrasiya Xidməti əcnəbinin və vətəndaşlığı olmayan şəxsin yaşayış yeri üzrə qeydiyyata alınmasından imtina edir [9].

Əgər qüvvədə olan Mənzil Məcəlləsinin 40-cı maddəsinə nəzər salsaq, görərik ki, həmin maddə "Kommunal mənzildə otaq mülkiyyətçilərinin ümumi əmlakına mülkiyyət hüququ" adlanır [3, s. 18]. və bu maddədə şəxsin qeydiyyata alınmasından, mənzil normasından və s. məsələlərdən bəhs edilmir. Lakin buna baxmayaraq, Qanunun 8-ci maddəsinin 3-cü bəndində qüvvədən düşmüş Mənzil Məcəlləsinin 40-cı maddəsinə illərlə qanunsuz və əsassız istinad edilir. Nəticədə, həm ölkə vətəndaşlarının, həm də əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatla bağlı hüquqları məhdudlaşdırılır. Bu baxımdan təklif edilir ki, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanununun 8-ci maddəsinin 3-cü bəndi çıxarılsın.

Qeyd etmək lazımdır ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı ilə bağlı "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunda mövcud olan nöqsan, Miqrasiya Məcəlləsinin müvafiq maddəsində də öz əksini tapır. Belə ki, Qanunun "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması" adlı 11-ci maddəsində göstərilir ki, ölkəmizdə yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 21-ci maddəsi ilə müəyyən edilmiş müddətə və qaydaya uyğun olaraq aparılır. Əgər Miqrasiya Məcəlləsinin 21-ci maddəsinin adına diqqət etsək, görərik ki, Qanunda olduğu kimi, bu maddənin adı da "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması" adlanır. Göründüyü kimi, Qanunun 11-ci maddəsinin adında mövcud olan nöqsan Miqrasiya Məcəlləsinin 21-ci maddəsinin həm adında, həm də mətnində təkrar edilir.

Belə ki, Miqrasiya Məcəlləsinin 21-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə

(mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) qeydiyyata alınmalıdırlar [2, s. 21]. Bu maddənin tələblərinə əsasən, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin müdriyyəti və yaxud mənzilin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 15 gün ərzində həmin şəxsləri olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini Dövlət Miqrasiya Xidmətinə təqdim edir. Dövlət Miqrasiya Xidməti də ərizə daxil olduqdan sonra dərhal əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə onları olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində müraciət edən şəxsə məlumat verir.

Halbuki, həmin subyektlər həm Qanunun 11-ci maddəsinə, həm də Miqrasiya Məcəlləsinin 21-ci maddəsinə əsasən olduğu yer üzrə qeydiyyata yox, qeydə alınmalıdırlar. Nəticədə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları məhdudlaşdırılır.

Məlum olduğu kimi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla olmasının və yaşamasının hüquqi əsasları Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Belə ki, Azərbaycan Respublikasında müvəqqəti olan şəxs – Azərbaycan Respublikasına turizm, şəxsi iş, xidməti ezamiyyət və s. bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar olaraq qanuni əsaslarla gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxsə deyilir [2, s. 3]. Bu şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada ölkəyə gələn şəxslərin isə ölkədə müvəqqəti olma müddəti 90 gündən artıq ola bilməz [2, s. 14].

Azərbaycan Respublikasında müvəqqəti yaşayan şəxs – Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin ölkəmizin ərazisində müvəqqəti yaşamaq müddəti 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər [2, s. 23].

Azərbaycan Respublikasında daimi yaşayan şəxs – Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir. Bu şəxslərə daimi yaşamaq üçün icazə vəsiqəsi verilir. Bu sənəd həmin şəxslərin Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən hüquqi sənəddir. Bu sənəd 5 il müddətinə verilir [2, s. 23].

Şərh edilən bu anlayışlardan aydın olur ki, "müvəqqəti olan şəxs"in ölkəmizdə yaşaması üçün Dövlət Miqrasiya Xidmətindən icazə tələb olunmur, lakin "müvəqqəti yaşayan şəxs"in və "daimi yaşayan şəxs"in ölkəmizdə yaşaması üçün qanunla müəyyən edilmiş qaydada Dövlət Miqrasiya Xidməti tərəfindən icazə verilməlidir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ölkəmizdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı ilə bağlı qanunvericilikdə bəzi ziddiyyətli məqamlar da mövcuddur. Məsələn, Azərbaycan Respublikasının 8 dekabr 1999-cu il tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 6-cı bəndində göstərilir ki, yaşayış yeri üzrə qeydiyyata alınma barədə müraciət etmiş Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs Daxili İşlər Nazirliyi tərəfindən dərhal qeydiyyata alınır və həmin şəxsə şəxsiyyətini təsdiq edən müvəqqəti sənəd verir. Həmçinin bu Əsasnaməyə əlavə edilmiş 3 və 4 saylı "ƏRİZƏ-ANKETƏ" əsasən 16 yaşına çatanadək və 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə

qeydiyyata alınması və ona Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün şəxsiyyət vəsiqələrinin verilməsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir [5].

Lakin Azərbaycan Respublikası Prezidentinin 19 mart 2007-ci il tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamənin 9.7-1-ci bəndində göstərilir ki, Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə almış əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Dövlət Miqrasiya Xidməti yaşayış yeri üzrə qeydiyyata alır və onlara müvafiq vəsiqələrin verilməsini təmin edir [6].

Buradan göründüyü kimi, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri həm Daxili İşlər Nazirliyi, həm də Dövlət Miqrasiya Xidməti yaşayış yeri üzrə qeydiyyata alır və şəxsiyyət vəsiqələri ilə təmin edir. Fikrimizcə, ölkəmizdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyata alınması dünya təcrübəsinə uyğun olaraq yalnız Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilməlidir. Bununla bağlı mövcud olan ziddiyyəti aradan götürülməsi üçün təklif edilir ki, qanunvericlikdə müvafiq dəyişikliklər edilsin.

Bundan başqa, milli qanunvericiliyimizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması ilə bağlı hüquq normalarında da müəyyən nöqsanlar mövcuddur. Belə ki, Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşamasına görə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilirlər [4, s. 213].

Fikrimizcə, bu maddədə əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə tətbiq edilən inzibati tənbeh növü İXM-nin 9.1-ci maddəsinə əsasən onların şəxsiyyəti nəzərə alınmaqla və törədilən əməlin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə uyğun olaraq tətbiq edilməlidir. Bu baxımdan təklif edilir ki, İXM-nin 575.1.1-ci maddəsinin dispozisiyasında göstərilən inzibati xətanın qəsdən törədilməsinə görə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılma, ehtiyatsızlıqdan törədilməsinə görə isə inzibati cərimə tətbiq edilsin.

Beləliklə, araşdırmaya yekun vuraraq belə qənaətə gəlmək olar ki, ölkəmizdə yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmaları ilə bağlı "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Miqrasiya Məcəlləsində mövcud olan nöqsanların aradan qaldırılması ilə bağlı verilmiş təkliflər qəbul edilərsə, bu, həmin subyektlərin hüquqlarının tam bərpa olunmasına və milli qanunvericiliyimizin təkmilləşdirilməsinə köməklik etmiş olacaq.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Qanun, 2019. - 63 s.
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. - Bakı: Qanun, 2018. - 167 s.
3. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi. - Bakı: Qanun, 2016. - 76 s.
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. - Bakı: Qanun, 2018. - 314 s.
5. Azərbaycan Respublikasının 8 dekabr 1999-cu il tarixli 773-IQ nömrəli Qanunu [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/28796 (müraciət tarixi: 14.11.2019)

6. Azərbaycan Respublikasının 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Qanunu [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/1631 (müraciət tarixi: 14.11.2019).

7. Azərbaycan Respublikası Prezidentinin 19 mart 2007-ci il tarixli 560 nömrəli Fərmanı. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/ 12885 (müraciət tarixi: 15.11.2019).

8. Çirkin V.Y. Xarici ölkələrin konstitusiya hüququ: dərslik/tərc.ed. Ə.H. Hüseynov. – Bakı: Digesta, 2007. – 720 s.

9. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanunu. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/3988 (müraciət tarixi: 12.11.2019).

10. Богуславский М.М. Международное частное право: Учебное пособие. 5-ое изд., перераб. и дополн. - М.: Юристъ, 2005. - 604 с.

11. Лукашук И.И., Шинкаретская Г.Г. Международное право. - М.: Рос. право, 2003. - 400 с.

12. Советский энциклопедический словарь. -М.: Советская энциклопедия, 1987. - 1600 с.

13. Словарь иностранных слов. - М.: Русский язык, 1986. - 422 с.

14. Тиунов О.И. Проблемы международного гуманитарного права. - М.: ИД Юриспруденция, 2008. - 290 с.

15. Толковый словарь русского языка. Том 1 / под ред. Д.Н. Ушакова. - М.: Советская энциклопедия, 1935. - 1209 с.

16. Толковый словарь русского языка. - М.: Государственное издательство иностранных словарей, 1939. - 979 с.

Агасиев Р.М.♦

**DOI:** **10.25108/2304-1730-1749.iolr.2019.61.6-16**
**УДК 342.7**

## Проблемы с регистрацией иностранцев и лиц без гражданства по месту жительства и по месту пребывания в Азербайджанской Республике

**Аннотация:** Приводятся объяснения для иностранцев и лиц без гражданства, определяются их особенности и правовой статус. Анализируются и исследуются проблемы с регистрацией таких лиц по месту жительства и месту пребывания. Сравниваются недостатки в Законе Азербайджанской Республики № 55-IQ от 4 апреля 1996 года «О регистрации по месту жительства и месту пребывания» и сделаны ряд научных предложений.

**Ключевые слова:** иностранцы и лица без гражданства; регистрация по месту жительства; регистрация по месту пребывания; удостоверение специального образца; решение специального образца.

### Библиография

1. Конституция Азербайджанской Республики. - Баку: Закон, 2019. - 63 с. (на азерб. яз.).
2. Миграционный кодекс Азербайджанской Республики. - Баку: Закон, 2018. - 167 с. (на азерб. яз.).
3. Жилищный кодекс Азербайджанской Республики. - Баку: Закон, 2016. -76 с. (на азерб. яз.).
4. Кодекс об административных правонарушениях Азербайджанской Республики. - Баку: Закон, 2018. - 314 с. (на азерб. яз.).
5. Закон Азербайджанской Республики № 773-IQ от 8 декабря 1999 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/ 28796 (дата обращения: 14.11.2019) (на азерб. яз.).
6. Закон Азербайджанской Республики № 306-IIQD от 19 апреля 2002 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/1631 (дата обращения: 14.11.2019) (на азерб. яз.).
7. Указ Президента Азербайджанской Республики № 560 от 19 марта 2007 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/ 12885 (дата обращения: 15.11.2019) (на азерб. яз.).
8. Чиркин В.Е. Конституционное право зарубежных стран: учебник / перев. А.Г. Гусейнова. – Баку: Дигеста, 2007. – 720 с. (на азерб. яз.).
9. Закон Азербайджанской Республики № 55-IQ от 4 апреля 1996 г. «О регистрации по месту жительства и месту пребывания» [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/3988 (дата обращения: 12.11.2019) (на азерб. яз.).

♦ **Агасиев Расим Мизи оглы** - доктор философии права, заведующий кафедрой «Права иностранцев и миграция», Институт права и прав человека, НАНА, Азербайджан. E-mail: rasim_agasiyev@mail.ru

10. Богуславский М.М. Международное частное право: Учебное пособие. 5-ое изд., перераб. и дополн. - М.: Юристъ, 2005. - 604 с.

11. Лукашук И.И., Шинкаретская Г.Г. Международное право. - М.: Рос. право, 2003. - 400 с.

12. Советский энциклопедический словарь. - М.: Советская энциклопедия, 1987. - 1600 с.

13. Словарь иностранных слов. - М.: Русский язык, 1986. - 422 с.

14. Тиунов О.И. Проблемы международного гуманитарного права. - М.: ИД Юриспруденция, 2008. - 290 с.

15. Толковый словарь русского языка. Том 1 / под ред. Д.Н. Ушакова. - М.: Советская энциклопедия, 1935. - 1209 с.

16. Толковый словарь русского языка. - М.: Государственное издательство иностранных словарей, 1939. - 979 с.